**Sabirabadda fəaliyyət göstərən ictimai iaşə obyektində keçirilən yoxlamaya dair məlumat**

**(2 iyul 2026)**

Qida Təhlükəsizliyi Agentliyi tərəfindən Sabirabad şəhəri, 20 Yanvar küçəsində fəaliyyət göstərən, Eyyubov Emil Eyyub oğluna məxsus ictimai iaşə obyektində aparılan yoxlama zamanı qida təhlükəsizliyi sahəsində normativ tələblərin pozulduğu müəyyən edilib.
Belə ki, temperaturun monitorinqi və qeydiyyatının aparılmadığı, istehsalat sahələrinin quruluşu və təchizatına əməl edilmədiyi, qida ilə təmasda olan səthlərin yuyulabilən və korroziyaya davamlı materialdan hazırlanmadığı, işçi heyətin xüsusi geyimlə təmin edilmədiyi, qida komponenti kimi istifadə olunan suyun filtrdən keçirilmədiyi, müvafiq təmizlik işlərinin görülmədiyi və digər nöqsanlar aşkarlanıb.
Obyektin fəaliyyəti nöqsanlar aradan qaldırılanadək məhdudlaşdırılıb, rəhbəri inzibati məsuliyyətə cəlb edilib.